Ədəbiyyat qəzeti
xüsusi buraxılış
22 may 2021-ci il


Quş uçur, ağac çiçəkləyir, səhər açılır, duman çəkilir... Demir ki, uçur, demir ki, çiçəkləyir, demir ki, çəkilirik! Bu, təbii bir prosesdir. Yaradıcı insanın yazmaq ehtirası (və ehtiyacı) da belədi, yəni təbii... Diktə yoxdu, məqsəd, göstəriş, əlavə təsir yoxdu. Məsələ ondadı ki, yaradıcı adam niyə, nədən və nə üçün yazdığının fərqindədi. Aydın məqsədi var. Eynilə Xalq şairi Sabir Rüstəmxanlı kimi; o, yazmaqdan daha çox, yaşadır, yaşada-yaşada anladır. Yazmaq onun üçün anlamaq və anlatmaq məqamıdır. Sabir Rüstəmxanlı şəxsiyyəti, Sabir Rüstəmxanlı abidəsi vaxtdan ucada dayana bilmək örnəyidir. İlkdən, əzəldən tanındığı həqiqətdir ki, "ta bilinə hər kişinin təbi ilə haləti" (Babur şah).



Sərvaz HÜSEYNOĞLU

Sabir bəy təbi ilə haləti bir-birini tamamlayan xoşbəxtlərdəndi. Ədəbi zövqümün, üslubumun, sənətə baxışımın formalaşmasında fövqəladə yeri olan Sabir Rüstəmxanlı barəsindədi bu yazı; vətəndaşlığı, şəxsiyyəti, mübarizliyi, türkçülük sevdası, bənzərsiz yazı üslubu və zövqü ilə həmişə İç dünyamda (və önümdə) olan Ustad haqqında!..

# Zirvəyə qaldıran dağ yolu kimi...

...Fəlakət baş verir, adı tarixə kömülmüş Alpanaq dağı bir göz qırpımında yerləyeksan olur, əvəzində bütün təbiət gözəlliklərini kölgədə qoyan Göygöl zühr edir. Təptəzə, bənzərsiz bir aləmin seyri başlayır... Sabir Rüstəmxanlı yaradıcılığının, onun özünəməxsus üslubunun sehri bu cür təbii gözəllikdə və mükəmməllikdədi. O, bu bənzərsiz gözəllikdə yaşaya və yaşada bilir.

Çoxsaylı ədəbi şəxsiyyətlərin diqqətindən kənarda qalmamağımda Sabir Rüstəmxanlının "Ömür kitabı"nın, "Cavad xan" poemasının, "Ölüm zirvəsi", "Difahi fədailəri" romanlarının, "Özümüzdən böyük sözümüz" toplusuna daxil etdiyi ədəbi düşüncələrinin, dillər əzbəri olan şeirlərinin, ən yüksək tribunalardan etdiyi çıxışlarının mənə verdiyi enerjinin, özünütəsdiq imkanının fövqəladə, unudulmaz yeri var. Dəfolunmaz istəklə qoşduğum ünvanlara, dürlü arzularıma yetişmək yolumda etibarlı körpüyə, dost əllərinə dönüb bu kitablar...

Bu kitabları oxuduqca (və oxuyub dərk etdikcə) bir daha anlamışam ki, Sabir Rüstəmxanlı kimi şəxsiyyətlərin varlığı dünyaya könül xoşluğu və xoşbəxtlik gətirir. "Belə adamların həyat tarixi, gücünün dəyəri, görünməmiş dərinliklər fəth etməsinə imkan yaradan şəxsi mülkiyyəti müqəddəsdi". Sabir bəy fəaliyyətinin ədəbi-bədii, tarixi-fəlsəfi yönünü ictimai-siyasi missiyası ilə mükəmməl şəkildə uzlaşdıra bilən nadir şəxsiyyətlərdəndi. Və onun tərcümeyi-halının, yaradıcılığının, ictimai-siyasi fəaliyyətinin bu bənzərsiz palitrası illər öncəsi qələmə aldığım "Ruhla zaman arasında" adlı kitabımın araya-ərsəyə gəlməsinə vəsilə olmuşdu. Sabir bəyin çoxşaxəli yaradıcılığını dərin heyranlıq və sevgi duyğuları ilə incələməyə çalışdığım "Ruhla zaman arasında" kitabımdan keçənlərə qayıtmaq istəmirəm. Ancaq qeyd etməyə də bilmirəm ki, o incələmələr boyunca mən bir həqiqəti qəti şəkildə anladım ki, "dövlətləri öz çağları üçün silahları və gücləri qoruyursa, gələcək üçün söz, ədəbiyyat, tarix qoruyur".

Sabir bəy dövlətimizi, mili dəyərlərimizi, tariximizi gələcək üçün qoruyan o böyük (və müqəddəs) sözə, ədəbiyyata, milli dəyərlərimizə, dilimizə, tariximizə həmişə vəfalı olub. Sabir bəy öz parlaq fəaliyyətilə XX əsrin 80-ci illərində Azərbaycan ədəbi-mədəni həyatına Əli bəy Hüseynzadə, Kaspıralı, Üzeyir bəy Hacıbəyli tendensiyasını, mücadilə formulunu qaytarıb. Bir daha (və qəti bir dotələbliklə) anladıb ki, siyasətçi adamları "özününkü" və "özgələrinki" deyə bölür: "Ədəbiyyat isə adamları ayırmır. Siyasətçi sərhəd çəkir, ədəbiyyat isə sərhəd və məhdudiyyət tanımır, sərhədləri dağıdır. Siyasətçi məqsədinə çatmaq üçün insanları qurban verməyə hazırdır, ədəbiyyatçı isə özü qurbanlıq doğulmuşdur... Hər xalqın taleyində elə ölüm-dirim anları var ki, orada hansı sənətlə məşğul olduğun yaddan çıxır. Səngərə atılmaqdan və ya milli mübarizəyə qatılmaqdan başqa yolun qalmır... Əsl ziyalılar siyasətlə məşğul olmalıdır. Onların bu sahədəki fəaliyyətləri siyasətin ümumi mədəni səviyyəsini yüksəldir".

Sabir bəyin ədəbi, ictimai-siyasi fəaliyyəti bu nəzəri fikirləri şəxsi nümunəsində hürriyyət, azadlıq meydanlarında əsl vətəndaş yanğısı ilə gerçəyə çevirə bilməyin dərin heyranlıq doğuran nümunəsidir. Özü də sözün həqiqi mənasında. Örnək səviyyəsində! Onun ədəbi-elmi, ictimai-siyasi fəaliyyətinin özülündə vazkeçilməz milli hədəf anlayışı dayanır. Bu vacib fəaliyyətində Sabir bəy bitkin, mükəmməl və ardıcıldır.

Sabir Rüstəmxanlı ömürlüyü, Sabir Rüstəmxanlı yaradıcılığı, yaşamı zirvəyə qaldıran dağ yollarıdı və çağdaş nəsil könül rahatlığı ilə bu yollardan keçib getməlidir!..